*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 284-291*
https://doi.org/10.62837/2024.3.284

**XƏLİLLİ SƏMA ARZUMAN**
*Bakı Slavyan Universiteti (BSU)*
*Bakı şəhəri, S.Rüstəm küçəsi,33*
E-mail: Xelillisema32@gmail.com

# MÜTALİƏ - ŞİFAHİ NİTQİ, YAZI- DİL NORMALARINI UYĞUN QAYDADA İNKİŞAF ETDİRƏN AMİLLƏRDƏN BİRİ KİMİ

***Açar sözlər:*** şifahi nitq, ifadəli oxu, ədəbi dil, dil vahidləri, iş formaları
***Ключевые слова:*** устная речь, выразительное чтение, литературный язык, языковые единицы, формы работы
***Keywords:*** oral speech, expressive reading, literary language, language units, work forms

Nitqin keyfiyyəti hər bir insanın əxlaqi, mənəvi, psixoloji inkişaf səviyyəsi ilə şərtlənir və şəxsi mədəniyyətinin əsas göstəricilərindən birinə çevrilir. Müasir dövrdə insanların iş keyfiyyəti, nüfuzu, təsir dairəsi ilk növbədə onların intellekti, təfəkkürü və bunların ifadə forması olan nitq səviyyəsi ilə şərtlənir. Məhz buna görədir ki, son illər təhsil sistemində şifahi, mədəni nitqə çox diqqət yetirilir. Orta məktəb dərsliklərində, elmi tədqiqat əsərlərində bu məsələyə geniş yer verilmişdir.

Nitq mədəniyyəti anlayışı geniş məzmun kəsb edir. O, lüğət ehtiyatını, düzgün, dəqiq, aydın və məntiqi nitqi, məqsədə və məzmuna, dinləyici və oxucunun xüsusiyyətinə uyğun üslub, danışıq və yazı tərzi seçmək bacarığını və s. cəhətləri əhatə edir. Bunların formalaşmasında ədəbiyyat fənni xüsusi rol oynayır. Ədəbiyyat fənninə daxil olan bütün materialların öyrədilməsi prosesində şagirdin nitqinin inkişafına diqqət yetirilir. Bununla yanaşı, bir çox məşğələlər yalnız nitqin bu və ya digər cəhətinin inkişaf etdirilməsinə, nitq üzrə bacarıq və vərdişlərin yaradılıb və formalaşmasına həsr olunur. Ədəbiyyat dərslərində yazılı və şifahi nitq məşğələlərinin təşkili və aparılmasına dair çoxlu elmi-metodiki ədəbiyyat nəşr edilmişdir.

Nitq şifahi və yazılı olmaqla iki növə bölünür. Bunlar bir-biri ilə sıx bağlı olsalar da, məzmunundan və formalaşma qaydalarından asılı olaraq hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Onların hər birinin insan fəaliyyətindəki mövqeyi də fərqlidir. Buna uyğun olaraq orta məktəbdə şifahi və yazılı nitqin inkişafı üçün istifadə olunan iş yolları və formalar bir-birindən fərqlənir.

Şifahi nitq yazılı mətnin səsləndirilməsi, həmçinin insanın öz fikir və düşüncələrinin, hiss və duyğularının şifahi ifadə etməsi qaydalarını əhatə edir[2, s. 47]. Bunların da hər birinin müxtəlif formaları var. Məsələn, yazılmış mətnin səsləndirilməsi - oxumaq, əzbər söyləmək, mətni köçürmək, məzmunu danışmaq kimi formalarda təzahür edir. İnsan öz fikir və ideyalarını, hiss və duyğularını, düşüncəsini sözlə ifadə etməsi - sual vermək, hər hansı sualı cavablandırmaq, söhbət etmək, nitqin məruzə, çıxış, mühazirə, və s. formaları vasitəsilə çatdırır. Bütün

bunların keyfiyyət dərəcəsi isə şifahi nitqə verilən tələblərin yerinə yetirilməsindən (ifadə, danışıq) asılıdır. Həmin tələblər aşağıdakılardır:

1. Səslərin nitq prosesində tələffüzü.
2. Sözlərin və frazeoloji vahidlərin nitq prosesində deyilişi.
3. Cümlələr və bədii parçaların nitq prosesində deyilişi.

Şifahi nitqin bu tələbləri şagirdin bütün nitq fəaliyyətinə, müxtəlif elmlərin tədrisinə daxil edilir. Xüsusilə, Azərbaycan dili və ədəbiyyat dərslərində öyrədilir. Şübhəsiz ki, aparıcı və həlledici rol Azərbaycan dili və ədəbiyyat dərslərinin öhdəsinə düşür və məktəbdə şifahi nitqin formalaşdırılması zamanı ilk növbədə bu fənlər nəzərə alınır.

Azərbaycan dili və ədəbiyyat tədrisində şifahi nitqin inkişafı məsələlərini tədqiq edərkən hər birinin bu sahə üzrə qarşısında duran vəzifələri konkret şəkildə təsəvvür etmək son dərəcə vacibdir. Dil dərsləri əsasən orfoqrafiya qaydalarını və səslərin və səs tərkiblərinin, söz və ifadələrin, qrammatik formaların tələffüzünü, həmçinin vurğu və intonasiya qaydalarını əhatə edir. Bu qaydalar ədəbi tələffüz, ədəbi danışıq qaydalarıdır ki, onlar geniş yayılan və normativ hesab edilən halları, faktları əks etdirir. Ədəbiyyat dərsləri isə dil dərslərində tədris olunan qaydaları əsas götürməklə bərabər, bədii tələffüzün, bədii danışığın tələblərindən irəli gələn əlavə qaydaları ehtiva edir. Buraya səslərin, sözlərin, cümlələrin xüsusi ahənglə, avazla deyilişi, həm də bəzən dil normativlərindən fərqli deyilişi, vurğuların və intonasiya tərzlərinin rəngarəngliyi (yenə də bəzən ədəbi dil normalarından kənara çıxan ifadə tərzləri) daxildir.

Azərbaycan dili və ədəbiyyat dərslərində şifahi nitqin inkişafı əsasən fikirin savadlı, düzgün deyilişini nəzərdə tutursa, ədəbiyyat dərslərində bundan əlavə fikir və düşüncələrin, hiss və duyğuların ifadəli, təsirli və emosional tərzdə deyilişini də əhatə edir[1, s. 25].

Şifahi nitqin inkişafında hər iki fənnin vəzifələrindən asılı olaraq bu fənlərin birində şifahi nitqin yuxarıda qeyd olunan tələblərinə (nitq prosesində səslərin, sözlərin və frazeoloji vahidlərin, nitq hissələrinin tərkibi) müxtəlif istiqamətlərdən yanaşılır. Hər fəndə bu tələblərin müvafiq spesifik xüsusiyyətləri özünü qabarıq göstərir və onların bir-birindən fərqli cəhətləri müşahidə olunur.

Sözlərin deyilişi sahəsində Azərbaycan dili və ədəbiyyat fənlərində fərqli cəhətlər var. Bəzən dil fənni üçün məqbul olmayan hal ədəbiyyatda normal hesab edilir. Məsələn, Azərbaycan dilinin leksik qaydalarına görə "haraya", "hansı yana" sözləri işlədilir. Bu sözün "hayana" şəkildə deyilişi düzgün hesab edilmir. Lakin bədii ədəbiyyat bir sıra hallarda həmin sölər bu cür "təhrif olunmuş" formada işlənir və bu, nəinki normal sayılır, hətta nitqi gücləndirən, təsirli edən hal kimi qiymətləndirilir. Çünki onların bədii mətn daxilində deyilişi, avazı Azərbaycan dili fənnində normal hesab edilən "haraya", "hansı yana" sözlərinə nisbətən daha yaxşıdır.

Məsələn, Yenə öz sürünü nizamla düzüb
Baş alıb gedirsən hayana, ceyran?

Yaxud, ədəbi dil qaydalarına görə "mənə" əvəzinə "mana", "qala" əvəzinə "qələ" işlənməsi ciddi səhv olaraq qiymətləndirilir. Lakin ədəbi əsrlərdə, yaxud bədii nitqdə və ahəng, qafiyə, məzmun çaları, kolorit yaradır, həm də müsbət hal kimi qiymətləndirilir.

Vidadi:Əl çək bu tərslikdən, qulaq as mana!
Vaqif:Ölsəm də ölməyi xoşdur mərdana…[7, s.95]

və yaxud

Qacar:Gürlasın dağlarda şeypurun səsi,
Sabah alınmalı Şuşa qələsi[7, s.98]

İfadə və cümlələrin deyilişində, habelə onların intonasiyada da ədəbiyyat fənni üçün məqbul sayılan hal Azərbaycan dili fənni üçün qeyri-normal hesab edilə bilər. Lakin bu o demək deyil ki, Azərbaycan dili və ədəbiyyat fənlərində şifahi nitq qaydaları bir-birindən tamamilə fərqlidir. Bu o deməkdir ki, hər iki fəndə şifahi nitqin qaydaları əsasən eynidir. Lakin bu qaydalar müxtəlif fənlərdə müxtəlif şəkildə tətbiq edilir və eyni zamanda hər bir fənnin özünəməxsus qaydaları vardır. Ona görə ana dili, habelə ədəbiyyat dərslərində şifahi nitq özünəməxsus istiqamətdə və spesifik üsul və priyomlarla, iş formaları ilə inkişaf etdirilməlidir. Müəllimlərin dil və ədəbiyyat dərslərində şagirdlərin dil vərdişlərini formalaşdırmaq sahəsindəki səyləri bir-birini tamamlayır. Lakin dil və ədəbiyyat dərslərində nitq inkişafı üzrə məşğələlərin prinsipal fərqi bundan ibarətdir ki, ədəbiyyat dərslərində öz fikir və duyğularını sözlə ifadə etmək bacarığının tərbiyə olunması dilin qrammatik quruluşunu öyrənmək yolu ilə deyil, söz sənətinin yaradılmasında istifadə edilən qanunlara yiyələnmək yolu ilə gedir.

Ədəbiyyat tədrisində şifahi nitqin inkişaf etdirilməsi məsələlərini iki baxımdan nəzərdən keçirmək olar:

Birincisi, dil vahidlərinə görə:
a) səslər üzrə;
b) sözlər və frazeoloji ifadələr üzrə;
c) cümlələr, bədii parçalar üzrə;

İkincisi, iş formalarına görə:
a) mətnin oxunması üzrə;
b) əzbər söyləmə üzrə;
c) məzmunu söyləmə üzrə;
ç) sual-cavab üzrə;
d) əsərin təhlili üzrə;
e) obyektin şifahi təsvirini vermək üzrə;
ə) fikri, hissi şifahi izhar etmək üzrə;
f) çıxış, məruzə etmək üzrə və s.[8, s. 52]

Belə yanaşma istiqamətləri bir-birilə sıx əlaqədardır. Çünki nitq səslər, sözlər üzrə nəzərdən keçirərkən istər-istəməz mətnin oxunması, söylənməsi, sual-cavab və s. iş formalarına toxunmaq lazım gəlir və əksinə, mətnin əzbər öyrənilməsi, məzmunun söylənməsi kimi iş formaları dil vahidləri olan səslər, sözlər, cümlələr üzərində aparılır. Deməli, yanaşma istiqamətlərinin hər ikisi - dil vahidləri və iş

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2024
Səh. 284-291
formaları üzrə tədqiqatlar eyni obyekti, yəni şifahi nitqi müxtəlif cəhətdən izah edir. Bu istiqamətlərin hər biri eyni məsələn ayrı-ayrı cəhətlərini işıqlandıra bilər. Ona görə də hər ikisi məqbuldur.

Ədəbiyyat tədrisində şifahi nitqi inkişaf etdimək üzrə aparılan konkret işlərdən danışmazdan əvvəl onların hamısı üçün əsas hesab edilən bəzi ümumi məsələləri nəzərdən keçirmək lazımdır. Çünki bu məsələləri bilmədən, nəzərə almadan görülən işin keyfiyyəti və səmərəsi az olur. Bu ümumi məsələlər aşağıdakılardır:

Birincisi, şifahi nitq üzrə iş apararkən şagirdi əhatə edən dil mühiti nəzərə alınmalıdır. Dil mühiti dedikdə, ailədə, ictimai yerlərdə və məktəbdə müşahidə edilən nitq şəraiti nəzərdə tutulur. Buraya həm ədəbi-bədii nitqi inkişaf etdirməyə, həm də ona mane olmağa təsir göstərən amillər daxildir. Əgər bu mühit normaldır, yəni ailədə, ictimai yerlərdə, məktəbdə ədəbi-bədii nitqin inkişafına mane ola biləcək amillər-dialekt və şivənin üstünlüyü, məktəbdə nitq rejiminin pozulması və s. yoxdursa, dərslərdə birbaşa şifahi nitqi inkişaf etdirən təmrinlərə başlamaq mümkündür. Lakin mənfi amillər olduqda, müəllim birinci növbədə, onları aradan qaldırmağa, yaxud şagirdləri onların təsirindən qurtarmağa çalışılmalıdır. Ədəbiyyat müəllimi öz şəxsi nümunəsi, söhbətləri, iradları vasitəsilə belə rəsmi dil mühitinin təbiiləşdirilməyə çalışmağa meyllındirilməlidir. Bəzi hallarda isə şagirdlər iki dil mühiti arasında çaşıb qalırlar. Məktəbdə ədəbi-bədii dildə danışır, öz nitqlərində diqqət yetirir, dialekt-şivə ünsürlərindən yersiz istifadə etmirlər. Lakin ailədə, məhəllədə, kənd arasında məktəbdə öyrəndiklərinə əhəmiyyət verməyərək dialekt üslubunda, loru dildə danışırlar və çox zaman bu hərəkətlərin düzgün hesab edirlər. Bir sıra hallarda isə onlar məktəbdəki və ya ailədə danışıq tərzindən hansının məqbul olduğunu bilmirlər. Ədəbiyyat müəllimi belə bir vəziyyəti nəzərə alıb onu aradan qaldırmağa cəhd göstərməsə, onun dərsdə öyrətdiklərini faydası olmayacaq. Çünki şagirdlər öyrəndiklərini məktəbdən kənar yerlərdə unudulacaqlar.

İkinci, şifahi nitqi inkişaf etdirmək üçün iş aparılarkən şagirdlərin şəxsi qabiliyyətləri nəzərə alınmalıdır. Şübhəsiz ki, dərslərdə bütün şagirdlər üçün ümumi tapşırıqlar verilir. Həmişə hər şagird üçün ayrıca tapşırıq vermək çətindir. Lakin tapşırığın icrası dərəcəsi hər şagirdin fərdi qabiliyyətinə uyğun olmalıdır. Məsələn, sinifdə şeir parçası əzbər öyrənilərkən müəyyən edilir ki, şagirdlərin bəzisi bu sahədə istedadlıdır: mətni bir-iki dəfə bütövlükdə oxuyanda əzbər öyrənirlər. Bəziləri isə misra və beytləri dəfələrlə təkrar etdikdə əzbərləyə bilirlər. Belə halda istedadlı şagirdlərdən mətni bütövlükdə əzbər söyləmək tələb edilir, bəzilərindən isə mətnin bir hissəsini. Şagirdlərin şəxsi qabiliyyəti, əsasən, onların əvvəllər, aşağı siniflərdə keçmiş dərslərdə əldə etdikləri bacarıqlarla şərtlənir. Buna görə də şifahi nitq üzrə hər bir məşğələdə şagirdlərin müvafiq bacarığı (əzbər söyləmək, məzmunu söyləmək, obrazlı ifadə düzəltmək və s.) əlaqədar əvvəllər əldə etdikləri bilik və bacarıqları xatırladılmalı və nəzərə alınmalıdır.

Şagirdin şəxsi qabiliyyəti onun yaş xüsusiyyətləri ilə də əlaqədardır. aşağı sinif şagirdi ilə yuxarı sinif şagirdi lüğət ehtiyatına, ifadə tərzinə, bədii söz qruplarına münasibətinə görə bir-birindən fərqlənirlər. Bədii söz və ifadələri öyrədərkən aşağı aşağı siniflərdə təşbeh və epitetlə, yuxarı siniflərdə isə istiarə, metonomiya ilə

əlaqədar işlərə üstünlük verilməlidir. Çünki təcrübə göstərir ki, aşağı sinif şagirdləri bədii obrazlılıq vasitələrindən daha çox epitet və təşbehləri işlədilər. Yuxarı sinif şagirdləri isə bədii sözün daha mürəkkəb formaları olan istiarələrə də nitqlərində geniş yer verirlər.

Üçüncü, Azərbaycan dili və ədəbiyyat dərslərində şifahi nitqi inkişaf etdirmək üçün iş apararkən əsas şərtlərdən biri lazımi psixoloji situasiya yaradılmasıdır. Bu cəhət bədii söz və ifadələr üzrə iş apararkən xüsusilə vacibdir. Bədii söz və ifadələrin düşünülərək tapılıb işlədilməsi, onların ifadəli deyilməsi xüsusi psixoloji situasiya tələb edir. Elə bir məqam yaradılmalıdır ki, şagirdlərin diqqəti eyni hədəfə, məsələn, istiarələr düzəltməyə yönəltməklə bərabər, onların təxəyüllü, fantaziyası da hərəkətə gəlsin, onlarda nitqin müəyyən cəhətini öyrənmək üçün daxili tələbat yaradılsın. Məsələn, şagirdlərdə tapmacalar düzəltməyi taşırdıqda belə bir situasiya yaradılması, yəni sakitlik olması, şagirdlərin fikrən fəallaşması son dərəcə zəruridir. 10-cu sinif Azərbaycan dili dərsliyində Oqtay Zəngilanlının "Şəhidlər" şeirində aşağıdakı misralara toxunarkən də belə bir psixoloji situasiyaya ehtiyac var:

Şəhidlər Ana yurdu tutdular candan baha,
Şəhidlər yol açdı, qaranlıqdan sabaha,
Şəhidlər ölməz ruhla, gedir üzü Allaha.
Şəhidlər gedən yolu tufanlar bağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar![6, s.90]

Bu misraları ifadəli oxumaq üçün şagird onun məzmununu qavraması və buna uyğun intonasiya tərzi seçməlidir ki, onun oxusunu ahəngi də gözəl mənzərənin obrazlı şəkildə istifadəsinə yardım etsin. Psixoloji nitq situasiyası yaratmaq üçün xüsusi çalışmalar vermək olar. Məsələn, şagirdlərə tapşırılır ki, bir neçə məcazı desinlər. Belə tapşırıqlar şagirdin fikri fəallığını və təxəyüllünü canlandırır, onlarda daxili təkan yaranır.

Dördüncü, şagirdlərin şifahi nitqinin inkişafını təmin etmək üçün ən vacib məsələlərdən biri təmrinlərin, təkrarların aparılmasıdır. Təcrübə göstərir ki, səsləri, sözləri, ifadələri bədii tərzdə tələffüz etmək üçün onları bir dəfə demək kifayət deyil. Bədii sözün deyilişi dəfələrlə təkrar edildikdən sonra onu asanlıqla, məzmunlu ifadə etmək vərdişi yaranır. Hər hansı dil dil vahidinin düzgün tələffüzü üzrə "avtomatlaşdırılmış" vərdiş olmadan onu məzmun çalarları ilə ifadə etmək mümkün deyil. Yeni bədii ifadələr düzəltmək, yaradıcı xarakter daşıyan tapşırıqları (şifahi təsvir, şifahi təhlil və s.) yerinə yetirmək çün də təmrinlər vasitəsilə vərdişlər yaradılmalıdır.

Beşinci, şifahi nitqi inkişaf etdirmək üçün iş apararkən tədris edilən mövzunun xüsusiyyətləri, imkanları nəzərə alınmalıdır. Azərbaycan dili və ədəbiyyat fənninin bütün mövzularını tədris edərkən şifahi nitqi inkişaf etdirmək üçün iş aparmaq mümkündür. Lakin bu mövzuların öyrənilməsi zamanı yaranan imkan müxtəlifdir. Məsələn, icmal mövzuların, ədəbiyyat nəzəriyyəsi materiallarının tədrisində şifahi nitqi inkişaf etdirmək üçün material nisbətən azdır. Lakin şifahi xalq ədəbiyyatı nümunələrinin tədrisi zamanı şifahi nitqin inkişaf etdirilməsi üçün çox geniş imkan və zəngin material vardır. Bu da təbiidir. Çünki folklor nümunələri şifahi yolla

yaradılır və şifahi nitq üslubunun qaydalarını əks etdirir. Burada sözlərin, ifadələrin quruluşu, intonasiya tərzi tamamilə şifahi nitqin qaydalarına əsaslanır. Həmin ədəbiyyatın nümunələri yazıya köçürüləndən də şifahi nitqin bir çox əlamətlərini özündə saxlayır və bu cəhət yazılı mətndə özünü açıq-aşkar göstərir. Folklor materiallarının tədrisi zamanı əlavə tədbirlər görməyə, əlahiddə iş formaları təşkil etməyə ehtiyac yoxdur. Sadəcə olaraq mətndəki formaları, qaydaları mənimsəmək, onları "təqlid etmək" kifayətdir.

Beləliklə, Azərbaycan dili və ədəbiyyat fənninin hər hansı mövzusunu tədris edərkən onun şifahi nitqlə əlaqədar xüsusiyyətlərinə uyğun iş forması və üsullarını müəyyənləşdirib təşkil etmək vacib şərtlərdəndir.

**Ədəbiyyat**

1.Abdullayev H.Ədəbi tələffüz təliminin metodikası. Bakı.1986.160 s.

2.Abdullayev A.S. Nitq mədəniyyəti və natiqlik sənəti. Bakı, "Maarif", 1981. 211 s.

3.Abidinova R., Hüseynova N. Azərbaycan dili və nitq mədəniyyəti, Elm və Təhsil, Bakı,2020, 445 s.

4.Çobanov M.Müasir Azərbaycan dili. Nitq mədəniyyəti. Bakı, Elm və Təhsil, 2006, 412 s.

5.Hüseynova H. "Nitqin inkişafına dair praktik məşğələlər", Bakı, Elm və təhsil, 2014. 258 s.

6.Hacıyev T., Bektaşi S., Hüseynova Y. 10-cu sinif Azərbaycan dili. Dərslik. Bakı, ŞƏRQ-QƏRB, 2023, 209 s.

7.Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. 11- ci sinif Ədəbiyyat.Dərslik. ŞƏRQ-QƏRB, 2023, 208 s.

8.Muradov B., Hacıyev A. Ədəbiyyat dərslərində şifahi və yazılı nitqin inkişaf etdirilməsi. Bakı: APİ, 1990, 80 s.

**MÜTALİƏ – ŞİFAHİ NİTQİ, YAZI- DİL NORMALARINI UYĞUN QAYDADA İNKİŞAF ETDİRƏN AMİLLƏRDƏN BİRİ KİMİ**

**S.A.Xəlilli**

**XÜLASƏ**

Orta məktəbin əsas vəzifələrindən biri şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirməkdir. Bu vəzifə bütün təlim və tərbiyə prosesi boyunca həyata keçirilir. Məktəbdə elə bir fənn, elə bir tədbir yoxdur ki, orada nitqə diqqət yetirilməsin. Hətta hər bir məktəbdə nitq rejiminin yaradılması, müəllim və şagirdlərin, məktəbdən kənar şəxslərin nitqinə müvafiq tələblərin qoyulması tövsiyə olunur. Valideynlərin və təhsil müəssisələrində çalışanların əsas vəzifələrindən biri də yeni nəslin nitq mədəniyyətinin formalaşmasına nəzarət etmək və bu prosesdə

onlara kömək etməkdir. Nitq mədəniyyəti anlayışı yalnız dilin nəzəri məsələləri ilə bağlı deyil, həmçinin ədəbi dil normalarının təbliğidir. Bununla bağlı linqvistlərlə yanaşı müəllimlər, ədiblər və digər bir çox sahələrdə öz sözünü demiş ziyalılar əhəmiyyətli dərəcədə rol oynamalıdırlar. Bütün deyilənləri nəzərə alaraq, qeyd etmək lazımdır ki, nitq mədəniyyətinin növləri olan şifahi və yazılı nitq orta məktəbdən etibarən şagirdlərə düzgün şəkildə aşılanmalıdır.

## ЧТЕНИЕ КАК ОДИН ИЗ ФАКТОРОВ ПРАВИЛЬНОГО РАЗВИТИЯ УСТНОЙ РЕЧИ И ПИСЬМЕННОЙ ЯЗЫКА

**С.А.Халилли**

### РЕЗЮМЕ

Одной из основных задач средней школы является развитие устной и письменной речи учащихся. Данная задача выполняется на протяжении всего учебно-воспитательного процесса. Нет в школе такого предмета, такого мероприятия, где не уделяли бы внимания речи. Рекомендуется даже установить речевой режим в каждой школе, установить соответствующие требования к речи учителей и учащихся, а также лиц за пределами школы. Одна из основных задач родителей и работников образовательных учреждений – следить за формированием речевой культуры нового поколения и помогать им в этом процессе. Понимание речевой цивилизации связано не только с теоретическими вопросами языка, но и с коммуникативными нормами литературного языка. В этом отношении важную роль должны сыграть лингвисты, ученые, писатели, ученые, выступавшие во многих других областях. Принимая во внимание все сказанное, следует отметить, что устное и письменное общение, являющиеся видами логической цивилизации, необходимо должным образом прививать учащимся, начиная со средней школы.

## READING AS ONE OF THE FACTORS THAT PROPERLY DEVELOP ORAL SPEECH AND WRITTEN LANGUAGE STANDARDS

**S.A.Khalilli**

### SUMMARY

One of the main tasks of the secondary school is to develop students' oral and written speech. This task is carried out throughout the entire training and education process. There is no such subject, such event in the school, where speech is not paid attention to. It is even recommended to establish a speech regime in each school, to

set appropriate requirements for the speech of teachers and students, and persons outside the school. One of the main tasks of parents and workers in educational institutions is to monitor the formation of the speech culture of the new generation and help them in this process.The understanding of speech civilization is related not only to the theoretical issues of language, but also to the communication of literary language norms. In this regard, linguists, scientists, writers, scholars who have spoken in many other fields should play an important role. Taking into account all that has been said, it should be noted that oral and written dialogue, which are types of logical civilization, should be properly instilled in students starting from high school.

**Rəyçi:** *f.f.d G.H.Mehdiyeva*